**K İ N O, T E L E və D İ G Ə R E K R A N S Ə N Ə T L Ə R İ**

**UOT: 791.43.**

**Abbasağa Əlizadə**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Doktorant**
**e-mail: abbasaga.elizade.1995@mail.ru**

## "KÖPƏK" – KÖPƏYƏ ÇEVRİLƏN İNSANLARIN DRAMI

**Xülasə:** Məqalədə alman psixoterapevti Frits Perlz tərəfindən əsası qoyulan qeştalt terapiya nəzəriyyəsinə istinadən Tofiq Tağızadənin "Köpək" filminin təhlili aparılıb. Filmin əks etdirdiyi dövrün sosial-siyasi durumu məhz baş qəhrəmanların daxili aləmlərinin psixoloji nöqteyi nəzərdən araşdırılaraq təhlil olunması əsasında müəyyən olunub. Bununla yanaşı məqalədə Kamil Rüstəmbəyovun "Zəncirlənmiş adam", Florian Qallenbergerin "Diqnidad koloniyası" filmləri ilə müqayisəli təhlil aparılıb.

**Açar sözlər**: Köpək, Zəncirlənmiş adam, psixoanaliz, film, kino, psixoloji dram.

Müxtəlif dövrlərdə baş verən ictimai-siyasi problemlər bir çox filmlərdə öz təcəssümünü konkret obrazlarda tapır. Məhz həmin obraz vasitəsilə cəmiyyəti narahat edən problemləri mühakimə etmək olur. İctimai-sosial problemlərin əks olunduğu filmlərdə baş qəhrəman mövcud sosial rejimlə barışmayıb, mübarizə aparır və onun əsas çətinliyi sərt çərçivələr daxilində mənliyini itirmədən məcburi şəkildə bu mühitdə yaşamaqdan ibarətdir.

Məzlum insanların köpəyə çevrildiyi "Köpək" filmində baş obrazın (Məmməd Səfa) daxili konflikti dramaturji hadisələrin əsasını təşkil edir. Filmin süjet xəttindəki xarici konflikt qəhrəmanın daxili aləmində baş verən ziddiyyətli motivlərin toqquşmasının aynasıdır. Filmdə müxtəlif obrazlar var. Lakin onların içərisində tamaşaçılara ideal olaraq Məmməd Səfa təqdim olunub. İdeal obrazın daxili konflikti isə ona müasir olan cəmiyyətin ictimai problemlərini əks etdirməlidir. Rejissor Tofiq Tağızadənin 1994-cü ildə çəkdiyi "Köpək" filmində əsas problem olaraq Sovet hakimiyyəti dövründə insanların köləşdirilməsinə yönələn ideoloji sistemdən bəhs olunur.

Ailəsinin sosial vəziyyətinin yaxşılaşdırılması və xoşbəxtliyi naminə fəhlə çalışan Məmməd Səfa digər həmkarları kimi hər dəfə tanımadığı insanların təqdim etdiyi kiçik məbləğ qarşılığında müxtəlif məkanlara bir neçə saatlıq və ya günlük çalışmağa gedir. Bu dəfə də belə bir sifariş gəlir, amma bu sifariş nə saatlara, nə də ki, günlərə bərabər olur. Son təklif fəhlələrin həyat tərzinə çevrilir. O həyat tərzi ki, çoxdan mövcud rejim altında yaşayan insanların şüuraltına yürüdülmüşdü. Məmməd Səfanın oğluyla vaxt keçirdiyi zaman kağız üzərində hərflərdən it rəsmi çəkmə səhnəsini əyləncə olaraq qiymətləndirmək düzgün olmaz. Bu səhnəni psixologiyada rəsmlərin mənasının öyrənilməsinin banisi olan isveçrəli psixoloq Karl Qustav Yunqun analizi əsasında təhlil edək. Yunqun təbirincə bütün incəsənətin məzmunu insanın şüuraltından gəlir – kollektiv və ya fərdi. Şüuraltı özünü ilk növbədə müxtəlif simvollar vasitəsilə biruzə verir (2). Baş qəhrəmanın çəkdiyi bu rəsmin kollektiv şüuraltından gəldiyini isbat edən əsas amil kimi həmin dövr hökm sürən repressiv rejimi göstərmək olar. Oyun zamanı baş qəhrəman övladının əhvalını yüksəltmək naminə özünü hətta it obrazına salır. Deməк ki, insanların kölələşdirilməsi naminə hökm sürən ideoloji təbliğat Məmməd Səfa kimi mərd, qürurlu insanların belə şüuraltına çoxdan təsir göstərib. Filmdə təqdim olunan mikroavtobus, düşərgə öz çərçivələriylə metafora olaraq sovet hakimiyyətinin modelini əks etdirir. Mikroavtobusla düşərgəyə gətirilən fəhlələr şəxsi azadlıqlarını itirib köləlik həyatına atılmaq məcburiyyətində qalırlar.

Hər zaman aktual olan azadlıq mövzusu müxtəlif filmlərdə fərqli yanaşmalar əsasında təqdim olunur. Bu mövzunun hər hansısa düşərgə və ya koloniya üzərindən əks olunma modeli “Köpək” kimi bir çox filmlərdə əsas götürülüb. Real hadisələr əsasında çəkilən “Diqnidad koloniyası” filmində (rejissor Florian Qallenberger, 2015, Almaniya, Fransa) 1973-cü ildə hərbi çevriliş nəticəsində hakimiyyətə gələn Auqusto Pinoçetin Çili Respublikasında tətbiq etdiyi diktatura rejimindən bəhs olunur. Hakimiyyətə tabe olmayıb, qaydaları pozanlar Diqnidad koloniyasına gətirilirlər. Xeyriyyəçilik birliyi adı altında fəaliyyət göstərən bu məkanda insanlar işgəncələrə məruz qalırlar. Çıxış yolunun olmadığı bu koloniyada da hər kəs yaşamağa davam etmək üçün eynən “Köpək” filmindəki kimi mövcud sərt və amansız qaydalara qeydsiz-şərtsiz tabe olub, öz əməklərinin istismarına sadəcə susmalı və kölə kimi çalışmağa davam etməlidirlər. Bu filmdə hadisələr alman jurnalisti Daniel (Daniel Brül) üzərindən cərəyan edir. “Diqni-

dad koloniyası" filmində baş verənlər sırf reallığı əks etdirir. "Köpək" filmində isə hökm sürən real repressiv ideoloji mühit düşərgə üzərinə köçürülərək tamaşaçılara metafora olaraq təqdim olunub. Hər iki filmdə hadisələr müəyyən fonla əhatələnib. "Diqnidad koloniyası" filmində bu fonu iki gəncin sevgi hekayəsi təşkil edir. "Köpək" filmində isə bunu Məmməd Səfanın xəyal olaraq yaşadığı xoşbəxt, mehriban ailə tablosu əvəz edir. O, yenidən ailəsinə, sərbəstliyinə və ən əsası azadlığına qovuşmaq ümidiylə düşərgə qanunlarına tabe olmayıb, düşdüyü çətin situasiyaya baxmayaraq, buradan çıxış yolu axtarıb tapmağa çalışır.

Filmin əsas qanunlarından biri də "danışma, göstər!"dir (1; s. 71). Bu qanundan çıxış edərək, qəhrəmanların xarakterlərinin əsas göstəricisi kimi əməllərini nümunə gətirmək olar. Ziddiyyətli məqamlarda verilən qərarlar, törədilən əməllər xarakterin başlıca göstəricisi kimi dəyərləndirilir. Konflikt, ekstremal vəziyyətlər, dramaturji gərginliyin yaranmasına gətirib çıxardır. Real azadlıq tələbatlarını ödəmək naminə daim mübarizə aparan Məmməd Səfa daxilində hökm sürən ziddiyyətli məqamları dərk edib, onlara təslim olmaq istəmir. Kütlədən ayrılmaq isə onun üçün həyati təhlükəyə bərabərdir. Fiziki cəhətdən sağ qalmaq üçün o, özünü psixoloji olaraq ölümə məhkum etmək məcburiyyətində qalır. Möhkəm xarakterli bu qəhrəmana zidd olaraq filmdə tamaşaçılara yaltaq, öz mənliyini və kimliyini düşünməyən obraz kimi Yaşar Nuri təqdim olunub. Yaşar Nuri daxilində hökm sürən zəifliyi dərk etməyib, ona güc gələ bilməməsi nəticəsində əməlləriylə özünə və ətrafında olan şəxslərə zərər vurur. Məmməd Səfa düşərgəyə gələn zaman Yaşar Nuri düşərgədən qaçmağa cəhd etdiyini, lakin bunun əhəmiyyətsiz olduğunu və mövcud vəziyyətlə barışdığını etiraf edir. O, psixoloji cəhətdən müdafiə mexanizmi kimi konlfüensiyanı seçib. Konflüensiya alman psixoterapevti Frits Perlz tərəfindən əsası qoyulan qeştalt terapiyası nəzəriyyəsində psixoloji müdafiə mexanizmlərindən biridir. Konflüensiya zamanı "Mən"lə ətraf aləm arasında olan sərhədlər pozulur və nəticədə "Mən", eləcə də onun arzuları, hissləri "əriyərək" məhv olur (3). Yaşar Nuri rahat və "hörmətli" həyat tərzi naminə yaltaq olub, yuxarı dairələrin nümayəndələrinə və ya öz "sahiblərinə" boyun əyməyi, lazım gəldikdə köpək kimi hərəkətlər etməyi belə özünə ayıb bilmir. Filmdə Yaşar Nurinin yaratdığı obraz vasitəsiylə Sovet hakimiyyəti dövründə mövcud köləlik rejiminə baş əyib, tabe olanlar nümayiş olunub. Mövcud rejimin təlqin etdiyi ideologiya sayəsində artıq çoxları reallığı təhrif edib və baş verən hadisələri yanlış qavramağa başlayıb. Yemək paylanılan

zaman onun keyfiyyətsiz olmasından kütləvi şəkildə gileylənənlərin narazılığı yaxşı “hürmək” qarşılığında nəzarətçi tərəfindən dərhal aradan qaldırılır. Kütlə hisslərinin alçaldıcı şəkildə manipulyasiya olunması Sovet hakimiyyətinin idarəetmə ideologiyasının əsas prinsiplərindən biri idi. İnsanların bu kimi təlqinə aldanmaq xislətinə qarşı etiraz edən Məmməd Səfa onların sərt və amansız reaksiyası ilə qarşılaşır. Məmməd Səfaya qarşı olan belə bir reaksiya insanların şüuraltında baş verən proseslərin nə dərəcədə dərin olmasından xəbər verir.

Filmin maraqlı xüsusiyyətlərindən biri də burada qəhrəmanların adlarının olmamasıdır. Bu isə cəmiyyətdə sıravi vətəndaş mövqeyinin yuxarı dairələr üçün nə qədər əhəmiyyətsiz olduğunun göstəricisi kimi qəbul oluna bilər. Çünki onların fərd olaraq mövcudluğu, inkişafı, azadlığı heç kimi maraqlandırmır. Azadlıqlarını itirən fəhlələr o dərəcədə ağır və amansız şərait altında istismar olunurlar ki, hətta ölüm belə onlar üçün gözəl görünür. İş zamanı fəhlələrdən biri bu ağır tapşırığı yerinə yetirərkən çətinliyə dözməyib həlak olur. Bu düşərgədə insan ölümü ətrafdakılarda məyusluqla yox, həsrətlə qarşılanır. Baş qəhrəman Məmməd Səfa da düşərgədə özünə qəsd etməyə cəhd göstərir amma buna nail ola bilmir. Baş qəhrəmanın özünəqəsd cəhdini Qeştalt nəzəriyyəsinin retrofleksiya müdafiə mexanizmi kimi dəyərləndirmək olar. Retrofleksiya insanın başqalarına qarşı etmək istədiklərini özünə etmək meylidir. Belə olan təqdirdə ətraf aləmlə fərd arasında olan sərhədlər konflüensiyadan fərqli olaraq yox olmaq əvəzinə daha da möhkəmlənir və nəticə etibarilə xarici aləmə yönələn impulslar fərdin özünə qayıdır (4). Onu anlamadıqlarını görən Məmməd Səfanın daxili iztirabları və aqressiyası getdikcə daha da yüksəlir. Alman psixoterapevti Frits Perlz aqressiyanı orqanizmin zəruri funksiyası adlandırıb. Ətraf aləmi dəyişib, öz istək və tələbatlarımızı yerinə yetirmək üçün aqressiyanın xüsusi rolunu vurğulayır (1; s. 109). Əsas qəhrəman (Məmməd Səfa) ətraf aləmdə baş verənlərlə barışa bilməyib bu məkandan qaçmağa cəhd edir. Sanki sözünün başa düşülmədiyi yerdə sözünü yox, məkanını dəyişmək prinsipini əsas tutur. Lakin düşərgədən qaçmaq məkanın dəyişilməsiylə nəticələnmir. Bilavasitə rejissor bununla Sovet hakimiyyətinin əhatə etdiyi bütün məkanların belə olduğunu əks etdirməyə çalışır. Çünki burada olan fəhlələr yalnız düşərgə daxilində insanların üzərində aparılan qəddar təcrübənin deyil, gündəlik həyat tərzlərinə çevrilin bir əzabın qurbanına çevriliblər.

Mövcud rejimdən, sistemdən qaçış yolu yoxdur. Belə bir mühitdə insani keyfiyyətləri, dəyərləri qoruyub saxlaya bilmək əsas məsələlərdən birinə çevrilir. Baş qəhrəman Məmməd Səfa vasitəsiylə filmdə bu kimi insani dəyərlərin təbliğini görürük. Onun it yuvasında zəncirlənmiş halda itlə üzbəüz monoloqu zamanı məhz bu məqam vurğulanır – "Mən insanam, insan kimi yaşamaq istəyirəm". Onun bu cümləsi argentinalı yazıçı Osvaldo Draqunun "İtə çevrilən adam" əsəri əsasında rejissor Kamil Rüstəmbəyov tərəfindən 1964-cü ildə çəkilmiş "Zəncirlənmiş adam" filmini xatırladır. Fərqli adlar adı altında çəkilən bu filmlər məzmun etibarıyla eynidirlər. Hər iki filmdə harınlamış sahibkarlar məzlum, imkansız və gücsüz insanlar üzərində öz çirkin əməllərini törətməkdə davam edirlər. Baş qəhrəman Alvardo (Ağadadaş Qurbanov) imkansızlıqdan varlı bir sahibkarın qapısında iti əvəz etmək təklifinə müvəqqəti olaraq razılıq vermək məcburiyyətində qalır. Qəhrəmanın transformasiya prosesi filmin gedişatı boyunca tamaşaçıların gözü qarşısında baş verir. Alvardonun dəyişim prosesini Frits Perlzın beş mərhələli nevroz modeli üzərindən təhlil etmək olar (1; s. 140-145). Alvardo öncə özünü sahibinin tələb etdiyi kimi aparır və Perlzın təbirincə belə maskalanma beş mərhələli nevroz modelinin ilki hesab olunur. Beləcə Alvardo sahibinin əmrinə əsasən müəssisənin iti kimi it yuvasında qalmalı olur. Hadisələrin yavaş-yavaş fərqinə varmağa başlayan Alvardonun daxili aləmində həyəcan təbili baş qaldırır. Bu isə növbəti fobiya mərhələsi adlandırılır. Bunu dərk edən Alvardo artıq ətrafdakılardan onu insan olaraq qəbul etmələrini xahiş edir. Bütün bu israrlara baxmayaraq, o yenə də insan olaraq qəbul olunmur. Alvardo artıq it olaraq fəaliyyət göstərmək istəmədiyini etiraf edəndə çıxılmaz vəziyyətlə üzləşir və bu mərhələ dalan adlandırılır. O, bu qərarından sonra özünü yoxluq və boşluq içərisində hiss etməyə başlayır. Belə bir hal isə imploziv partlayışa səbəb olur. İmploziv mərhələdə Alvardo artıq psixi olaraq frustasiya vəziyyətinə düşür. Bundan sonra o artıq baş verən və ya baş verə biləcək hadisələrlə bağlı hər hansısa qabaqlayıcı tədbir görmək baxımından özünü aciz və gücsüz hiss edir. Evə daxil olan zaman həyat yoldaşının göstərdiyi incə nəvaziş zamanı Alvardo sonuncu eksploziv mərhələyə keçid edir və emosional partlayış baş verir (5). Bu dəfə baş verən partlayış artıq daxili aləmə deyil, xarici aləmə sıçrayır. Onun emosional partlayışı həyat yoldaşına qarşı nümayiş etdirdiyi vəhşi şəhvət hissi üzərindən baş verir. Alvardonun daxilində olan vəhşi heyvani instinktlər aşkara çıxır. Bu instinktlərin baş qaldırmasına, ümumiyyətlə acınacaqlı

vəziyyətə düşməsinə əsas səbəb olaraq mövcud sosial rejim və harınlamış sahibkarların ona qarşı göstərdiyi münasibət və əməllər səbəb olub.

Bir neçə il fərqlə çəkilən "Zəncirlənmiş adam" və "Köpək" filmləri Sovet hakimiyyəti dövründə insanların kölələşdirmə prinsipləri əsasında idarə olunması mövzusunun nə dərəcədə aktual olduğunu bir daha nümayiş etdirir.

"Köpək" filmində psixoloji gərgin ab-hava hökm sürür və bir neçə saat davam edən bu gərginlik, sıxıntı əslində Sovet hakimiyyəti zamanı hər zaman mövcud olub. İnsanlar işgəncələrə, repressiyaya məruz qalıblar. Film hər zaman cəmiyyətdə müəyyən ideoloji fikrin formalaşmasına səbəb olub. Bu kimi vasitədən istifadə edərək cəmiyyətdə dini, siyasi, sosial və s. kimi ideoloji fikirlərin formalaşmasına xitab edən filmlər istehsal olunub. Bu baxımdan kinematoqrafiya sahəsi Sovet hakimiyyəti dövründə diqqət mərkəzində olub və müəyyən senzurayla əhatələnib. Sovet hakimiyyətindən bəhs olunan "Köpək" filminin 1994-cü ildə istehsal olunması heç də təsadüfü deyil. SSSR dağıldıqdan sonra azadlığa nail olan ölkənin kinematoqrafçıları rahatlıqla insanların illər ərzində məruz qaldığı repressiyanı, işgəncələri "Köpək" filmi vasitəsiylə müasir tamaşaçılara ötürüb.

**Ədəbiyyat siyahısı:**

1. Салахиева-Талал Т. "Психология в кино", Альпина Диджитал, 2019, s. 71, s. 109, s. 140-145
2. https://issuu. com/design_hse/docs/
3. https://www. zagorskaya. info/gestalt-sliyanie/
4. https://www. zagorskaya. info/retroflection/
5. https://www. zagorskaya. info/5-urovney-nevroza/

**Аббасага Ализаде**

## "ТВАРЬ"- ДРАМА ЛЮДЕЙ, ПРЕВРАЩАЮЩИХСЯ В СОБАК

**Резюме:** В статье анализируется фильм Тофика Тагизаде "Собака" на основе теории гештальт-терапии, основанной немецким психотерапевтом Фрицем Перлзом. Общественно-политическая ситуация периода, отраженная в фильме, определена на основе психологического анализа внутреннего мира главных героев. Кроме того, в статье проводится сравнительный

анализ с фильмами как "Человек в цепях" Камиля Рустамбекова и "Колония Дигнидадская" Флориана Галленбергера.

**Ключевые слова**: тварь, человек в цепях, психоанализ, психологическая драма, фильм, кино.

**Abbasaga Alizade**

## "DOG" İS A DRAMA OF PEOPLE WHO TURN İNTO DOGS

**Summary:** The article analyzes Tofig Taghizade's film "Dog" on the based on the theory of gestalt therapy, founded by the german psychotherapist Fritz Perls. The socio-political situation of the period, reflected in the film, is determined on the basis of a psychological analysis of the inner world of the main characters. In addition, the article provides a comparative analysis with such films as "Man in Chains" by Kamil Rustambekov and "Colony of Dignidad" by Florian Gallenberger.

**Key words**: Dog, Man in chains, psychoanalysis, psychological drama, film, cinema.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 12. 01. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**professor Əli Əmirli**